# PPRD East 2 PROQRAMININ MİLLİ MƏSLƏHƏT QRUPUNUN 1-Cİ İCLASI

***2 iyun 2015-ci il***

Caspian Plaza, Cəfər Cabbarlı küçəsi 44, Yasamal rayonu, Bakı şəhəri, Azərbaycan

Milli Məsləhət Qrupunun (MMQ) ilk iclası Bakı şəhərində 2 iyun 2015-ci ildə baş tutdu. PPRD East 2 Proqramı çətçivəsində MMQ-nin yaradılmasının əsas məqsədi Proqrama milli sahiblənməni təşviq etmək və müvafiq qurumları Proqramın həyata keçirilməsinə cəlb etməkdir. MMQ-nin əsas hədəfi Proqramın Azərbaycanda həyata keçirilməsinə yardım etmək və istiqamətləndirməkdir. Fəlakət risklərinin idarəedilməsi və mülki müdafiə sahəsində fəaliyyət göstərən müvafiq dövlət qurumlarının, elmi və donor cəmiyyətlərinin, eləcə də digər təsisatların 32 nümayəndəsi iclasda iştirak etmişdir.



PPRD East 2 Proqramının İdarəetmə Komitəsinin üzvü, Fövqəladə Hallar Nazirliyinin Baş Əməliyyat İdarəsinin rəis müavini polkovnik Səmədağa Səmədov MMQ-nin ilk iclasını giriş nitqi ilə açıq elan etdi. O, iştirakçıları salamladı və MMQ-nin iclasında iştirak etdiklərinə görə onlara təşəkkür etdi. Cənab Səmədov bildirdi ki, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Avropa Qonşuluq və

Tərəfdaşlıq Aləti çərçivəsində mülki müdafiə, radiasiya, tikinti və qida təhlükəsizliyi kimi sahələrdə Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq tvinninq, texniki yardım, büdcə yardımı və məlumat mübadiləsi proqramları əsasında qurulub. Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi və Litva Respublikasının Radiasiya Təhlükəsizliyi Mərkəzi "Azərbaycan Respublikasında radiasiya təhlükəsizliyi infrastrukturunun gücləndirilməsi" adlı Tvinninq layihəsini uğurla həyata keçirmişlər. Tikintidə təhlükəsizlik üzrə həyata keçirilən digər Tvinninq layihəsi Almaniyanın İnşaat Texnologiyaları İnstitutu və Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilib.

Cənab Səmədov eləcə də qeyd etdi ki, Fövqəladə Hallar Nazirliyi Şərq Tərəfdaşlığı ölkələrində həyata keçirilən Təbii və Texnogen Fəlakətlərin Qarşısının alınması, Hazırlıq və Cavab tədbirləri - PPRD East 2 Proqramının əsas benefisiarıdır. O, iştirakçıları Proqramın hədəfi və Azərbaycan üçün əhəmiyyəti barədə məlumatlandırdı və 1-ci mərhələdə mühum işlərin görüldüyünü qeyd etdi. PPRD East 2 Fövqəladə Hallar Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsinin baş məsləhətçisi və Proqramın Milli Koordinatoru Ceyhun İsgəndərli qeyd etdi ki, 1-ci mərhələ ərzində MMQ-nin 3 görüşü keçirilmiş və bu zaman müxtəlif mövzular müzakirə edilmişdir: Avropa İttifaqının Mülki Müdafiə Mexanizmi ilə əməkdaşlıq, Elektron Regional Risk Atlasının hazırlanması, İctimaiyyətin Məlumatlandırması, Sənaye Qəzalarının Qarşısının Alınması, Tərəfdaş ölkələrdə vətəndaş hüquqlarının müdafiəsi haqqında qanunvericiliyin təhlili, Mülki müdafiə sahəsində təlimlərin təşkil edilməsi. Cənab İsgəndərli PPRD East 2-nin İş Planları barədə məlumat verdi və Proqramın uğurla həyata keçirilməsi üçün MMQ-nin bütün üzvlərini fəal iştirak etməyə çağırdı.

PPRD East 2 Proqramının Layihə Komandasının Rəhbəri Cənab Sergey Anaqnosti Azərbaycanda MMQ-nin 1-ci iclasının məqsədləri barədə iştirakçıları məlumatlandırdı, Proqramın ekspertlərini və iclasın Gündəliyini iştirakçılara təqdim etdi və iştirakçıları İclasın Gündəliyinə öz irad və təkliflərini bildirməyə dəvət etdi. O, iştirakçılara məlumat verdi ki, hər 6 aydan bir həyata keçirilən fəaliyyətə dair hesabat hazırlanacaq və müvafiq olaraq MMQ-nin üzvlərinə Proqramın həyata keçirdiyi işlər və gələcək addımlar barədə məlumat veriləcəkdir. Təqdimata Əsas Fəaliyyət Proqramı, onun həyata keçirilməsi və gözlənilən nəticələr, həmçinin Proqramın tematik mövzuları daxil edilib. Sənaye təhlükələrinə və SEVESO Direktivinə uyğunlaşmaya layihə çərçivəsində deyil, DG ECHO-JRQ təşəbbüsü çərçivəsində baxılacaqdır. Qeyd edildi ki, Aİ normalarına uyğunlaşma Proqramın mühüm komponenti olacaq və fəlakət risklərinin idarə edilməsi üçün hüquqi baza daha da təkmilləşdiriləcək.

Cənab Anaqnosti öz təqdimatında 2015-ci il üçün Fəaliyyət Proqramının Sahələrini təsvir etdi. O Proqramın uğurla həyata keçirilməsi üçün iştirakçı təşkilatlar, ölkələr və Aİ arasında əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Təbii Fəlakət Nəticəsində olan İtkilərə dair Məlumatlar üzrə Qeyri-Əsas Ekspert Doktor Marko

Massabo "A" Fəaliyyət Sahəsi barədə iştirakçılara məlumat verdi:

- A1: Tərəfdaş ölkələrdə AB-nin Daşqın Direktivinə uyğunlaşma
- A2: Milli sahədə riskin qiymətləndirilməsinin inkişafı və/yaxud daha da təkmilləşdirilməsi
- A3: Tərəfdaş ölkələrin qanunvericilik və institusional mülki müdafiə/fəlakət risklərinin idarə edilməsi çərçivəsinin təkmilləşdirilməsi.

Doktor Massabo müvafiq izahat və nümunələri ilə hər bir alt-fəaliyyəti təsvir etdi.

Təqdimata cavab olaraq iştirakçılar bildirdilər ki, daşqınların monitorinqi və erkən xəbərdarlıq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin məsuliyyətindədir. Daşqın riski xəbərdarlığı edildikdən sonra, Fövqəladə Hallar Nazirliyi və Fövqəladə Vəziyyətin İdarə Olunması ilə əlaqədar digər təşkilatlar, o cümlədən Meliorasiya ASC müvafiq tədbirlər həyata keçirir. Ölkədə daşqın riskinin idarə edilməsini təkmilləşdirmək üçün 2010-cu ildə Fövqəladə Hallar Nazirliyinin nəzdində yeni Su Ehtiyatları Dövlət Agentliyi yaradılanadək Meliorasiya ASC daşqın risklərinin idarə edilməsi üzrə aparıcı müəssisə idi.

Qeyd edildi ki, Azərbaycanda daşqın riskinin/itkilərinin qiymətləndirilməsi metodologiyası yoxdur. ETSN daşqının ekoloji təsirlərinə nəzarət edir. Böyük miqyaslı daşqın risk xəritəsinin hazırlanmasına ehtiyac var və bu, Dövlət Proqramına daxil edilib.

İştirakçılar qeyd etdilər ki, PPRD East 2 çərçivəsində sentyabr ayında Belarusiyada planlaşdırılan Daşqın Direktivinə dair Regional Seminar məlumat mübadiləsində mühüm rol oynaya bilər və Aİ-nin Daşqınlar Direktivinin tətbiqi istiqamətində irəliləyiş əldə edilə bilər.

Elektron Regional Risklər Atlasına (ERRA) gəldikdə isə iştirakçılar bildirdilər ki, cavabdeh təşkilatların məlumatlarından istifadə edərək məlumat bazasının müntəzəm olaraq yenilənməsinə və görüşlərdə təqdim edilməsinə ehtiyac vardır. ERRA-dakı bütün verilənlər və məlumatlar mövcud vəziyyəti əks etdirməlidir.

Qeyd edilmişdir ki, Azərbaycanın çox qanunları, o cümlədən radiasiya təhlükəsizliyi haqqında qanun Aİ-nin qanunvericiliklərinə uyğun olaraq yenilənmişdir. Azərbaycanın Mülki Müdafiə haqqında, eləcə də digər qanunlarını Aİ qanunvericiliyinə uyğunlaşdırmaq lazımdır. Artıq qeyd edildiyi kimi, tvinninq layihələri bu məqsəd üçün istifadə olunur.

Həmçinin qeyd edildi ki, Avropaya İnteqrasiya üzrə Dövlət Komissiyası Azərbaycan qanunvericiliyinin Avropa İttifaqının Direktivlərinə uyğunlaşdırılması üçün Tədbirlər Proqramını hazırlayıb.



Cənab Michael Elmquist "B" Fəaliyyət Sahəsinin Mülki Müdafiə potensialının gücləndirilməsi, Avropa İttifaqının Mülki Müdafiə Mexanizmi, təlim proqramı və təlim metodologiyası komponentlərini təqdim etdi.

Əvvəllər Avropa Mülki Müdafiə Mexanizminin təlimlərində iştirak etmiş Fövqəladə Hallar Nazirliyinin nümayəndəsi cənab Ülfət Rzayev təlimlərin həm FHN üçün, həm də Azərbaycan üçün həqiqətən çox faydalı olduğunu qeyd etdi. O, təlimlərə əlavə olaraq Mülki Müdafiə ilə əlaqədar tədris səfərlərinin təşkil olunacağına ümid etdiyini bildirib.

Fövqəladə Hallar Nazirliyinin əməkdaşı cənab Sahib Həsənzadə qeyd etdi ki, Gürcüstanın Ətraf Mühit və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında imzalanacaq saziş çərçivəsində daşqınlardan birgə müdafiə tədbirlərinin keçirilməsi nəzərdə tutulur. Cənab Həsənzadə həmçinin iki ölkənin mülki müdafiə xidmətlərinin daşqınlardan müdafiə sahəsində iş aparması üçün oxşar fəaliyyətin bu Proqrama əlavə edilməsinin mümkünlüyü ilə maraqlandı.

Cənab Anaqnosti cavab olaraq bildirdi ki, Proqram çərçivəsində daşqınlardan qeyri-struktur yönümlü müdafiə tədbirləri sahəsində dəstək verilə bilər.

Milli Məclisin nümayəndəsi Cənab Şamil Hüseynov qeyd etdi ki, Azərbaycan Respublikasının 2007-ci ildə qəbul edilmiş və beynəlxalq, o cümlədən NATO və Aİ-nin təcrübəsinə əsaslanan Milli Təhlükəsizlik Konsepsiyasının 4.3 saylı bəndi fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin

sağlamlığının mühafizəsi ilə bağlıdır.

Milli Hidrometeorologiya Departamentinin nümayəndəsi cənab Mehman Məmmədov qeyd etdi ki, departament erkən xəbərdarlıq sisteminin inkişafı üzrə bir çox beynəlxalq təşkilatlarla, o cümlədən ÜMT ilə əməkdaşlıq edir və onlar tezliklə ÜMT-nin təşkil etdiyi müvafiq seminarda iştirak edəcəklər. O, həmçinin qeyd etdi ki, Proqram çərçivəsində müxtəlif modellərin, təlimlərin və s. keçirilməsi vasitəsilə ilə Hidrometeorologiya Departamentinə erkən xəbərdarlıq sistemini daha da inkişaf etdirməyə və fəaliyyətini daha da yaxşılaşdırmağa kömək göstərilə bilər.

Cənab Anaqnosti izah edib ki, Erkən Xəbərdarlıq Sistemi ilə bağlı hər hansı işin görülməsi PPRD East 2 Proqramının çərçivəsinə daxil deyildir.

Daha sonra Cənab Fil Langdale Milli Dəstək Mərkəzi (MDM) barədə təqdimatla çıxış etdi. Cənab Fil Langdale MDM-nin mərhələlərinə, eləcə də Aİ-nin MDM üzrə Təlimatlarına toxundu.

Azərbaycanda böyük fəlakətlər baş verdiyi təqdirdə ediləcək dəstəyin necə qəbul olunacağı üzrə prosedurların müəyyənləşdirilməsi üçün beynəlxalq humanitar yardımın qəbulunun təşkili üzrə hüquqi normativ çərçivə yaradılmalıdır. Bu, belə hüquqi normativ çərçivənin artıq tətbiq edildiyi ölkələrin öncül təcrübəsinə əsasən aparılmalıdır.

Azərbaycan Respublikasının gömrük məcəlləsində beynəlxalq yardım komandalarına fövqəladə vəziyyətlərə müdaxilə etmələri üçün almalı olduqları dəstəyin tərifini verən hər hansı istinad yoxdur. Müvafiq hüquqi normativ çərçivə aktual ehtiyaclara və reallıqlara uyğun olaraq yenilənməlidir.

Növbəti təqdimat ”C” Fəaliyyət Sahəsi barədə oldu:

- C.1 Elektron Regional Risk Atlasının daha da təkmilləşdirilməsi
- C.2 Milli səviyyədə fəlakət nəticəsində olan itkilərə dair məlumatların toplanması və işlənilməsinin yaxşılaşdırılması

İştirakçılara məlumat verildi ki, Azərbaycanda ERRA Sistemi daşqınlar, zəlzələlər, sürüşmələr, meşə yanğınları və texnogen təhdidlər barədə məlumatları əhatə edir və Azərbaycanda ən çox rast gəlinən təhdidlər üzrə əlavə məlumatın daxil edilməsi vasitəsilə genişləndirilməlidir.

İştirakçılar bildirdilər ki, ERRA parol ilə qorunmalıdır, amma ERRA-nın məlumatlarının bir hissəsi yerli əhali və tədqiqatçılar üçün əlçatan olmalıdır.

Cənab Rzayev bu yaxınlarda təşkil edilmiş ERRA-nın Regional Seminarı, Proqramın 1-ci mərhələsi çərçivəsində Fövqəladə Halların İdarə Edilmə Mərkəzində bir serverin quraşdırıldığı və ERRA-nın hal-hazırda Narilik daxilində istifadə edildiyi barədə tədbir iştirakçılarına məlumat verdi. Digər serverin ETSN-də quraşdırılması nəzərdə tutulurdu və zəruri məlumatların ötürülməsi üçün mərkəzi server ilə əlaqələndirilməli idi. Təəssüf ki, ikinci server hələ də quraşdırılmayıb və hal-hazırda ETSN-nin əldə etdiyi EUMETSAT məlumatlarına çıxışın əldə edilməsi üçün onun quraşdırılması yaxşı olardı. Həmçinin ERRA-nın ümumi ictimaiyyət üçün əlçatan olmasına ehtiyac var. Eləcə də ERRA-nın modelləşdirilmə

komponentinin əlavə edilməsi və ERRA-nın istifadəsinə dair təlimlərin keçirilməsi vacibdir.

Cənab Məmmədov məlumat verdi ki, Hidrometrologiya Departamenti meteoroloji məqsədlər üçün EUMETSAT peyk görüntülərindən istifadə edir və ETSN ERRA-nın ikinci serverinin quraşdırılmasını planlaşdırır.

Cənab İsgəndərli qeyd etdi ki, FHN ERRA sahəsində Aİ ilə əməkdaşlıq edir və PPRD East 2 Proqramı ERRA-nın yaradılması vasitəsilə ölkələr və Aİ arasında əməkdaşlığı artırır. Bu sistem təhlükələr, zəifliklər və risklərlə bağlı məlumat mübadiləsi aparmaq üçün faydalıdır. ERRA həmçinin təşkilatlararası əməkdaşlığın artırılmasına kömək edir və buna görə də müxtəlif qurumlarda xəritələrin yeni məlumatlarla yenilənməsinə və beləliklə, məlumatların keyfiyyətinin yaxşılaşdırılmasına kömək edə biləcək əlavə serverlər quraşdırmaq faydalı olar. Proqram çərçivəsində ERRA və digər CİS texnologiyalarından istifadəyə dair təlimlərin keçirilməsi faydalı olar.

Təbii fəlakət nəticəsində itirilmiş məlumatların toplanması ilə bağlı Cənab Hüseynov qeyd etdi ki, Azərbaycanda qanunvericilik ölkənin bütün ərazisini əhatə edir və burada heç bir regional, yaxud yerli qanunvericilik movcud deyildir, amma regionlarda yerli səviyyədə fəlakət riskinin idarə edilməsinə İcra Hakimiyyətləri rəhbərlik edir, fövqəladə hallar komissiyalarına isə Rayon İcra Hakimiyyəti Başçısının müavini rəhbərlik edir. Komissiyalar Fövqəladə Hallar Nazirliyi və Nazirlər Kabinetinin müvafiq qurumları ilə sıx əməkdaşlıq edir. Komissiya fəlakət zamanı regionda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələrindən təbii fəlakət nəticəsində itirilənlərin qiymətləndirilməsi qrupunu yaradır. Həmin qrup fəlakət nəticəsində itirilənlərin qiymətləndirilməsini həyata keçirir. Məlumat və informasiya mübadiləsi ilə bağlı Cənab Hüseynov qeyd etdi ki, bu sahə üzrə ümumi ictimaiyyətin hansı məlumatları əldə edəcəyini təmin edən İnformasiya əldə etmək haqqında Qanun, Dövlət Sirri Haqqında Qanun, Ekoloji İnformasiya əldə etmək haqqında Qanun və s. kimi bir sıra qanunlar mövcuddur.

Daha sonra İnformasiya və Media üzrə Qeyri-əsas Ekspert Cənab Alessandro Candeloro “D” Fəaliyyət Sahəsi və fəlakətlər haqqında məlumatlılığın artırılması barədə iştirakçıları məlumatlandırdı.

Qeyd edildi ki, FHN yaradılmazdan əvvəl fövqəladə hallar zamanı əhalinin məlumatlandırılması səmərəli həyata keçirilmirdi və bu indi Nazirliyin əsas prioritetlərindən biridir. Nazirlik mülki müdafiə, yanğından mühafizə və s. mövzularda məlumatlandırma kampaniyalarını aparır. Hazırda Nazirlik əhali arasında məlumatlandırma işini aparmaq üçün öz resurslarından istifadə edir. Bu baxımdan Avropa təcrübəsindən istifadə etməyə ehtiyac var və ümid edilir ki, Proqram çərçivəsində bu mövzunu əhatə ediləcək.

İştirakçılar həmçinin qeyd etdilər ki, ictimaiyyət də yaxşı informasiya mənbəyidir və dövlət orqanlarının ictimaiyyətdən toplanan məlumatları paylaşması vacibdir.

FHN nümayəndələri qeyd etdi ki, Nazirliyin Əhalinin Məlumatlandırılması üzrə Bölməsi var. Həmin bölmə mülki müdafiəni daha səmərəli etmək üçün əhali ilə işləyir. Fövqəladə Hallar Nazirliyi həmçinin

YUNİSEF, Təhsil Nazirliyi və Qırmızı Aypara və s. kimi təşkilatlarla əməkdaşlıq edərək məlumatlandırma kampaniyaları keçirir.

Daha sonra iştirakçılara "E" Fəaliyyət Sahəsi barədə məlumat verildi:

- E. 1 Fəlakət riskinin idarə edilməsində könüllülüyün gücləndirilməsi
- E. 2 Layihənin işıqlandırılmasının təmin edilməsi
- E. ¸ Proqramın idarə edilməsi

Cənab Anaqnosti Proqramın idarə edilməsi, hesabat prosedurları və digər əlaqədar məsələlərlə bağlı iştirakçılara məlumat verdi.

Daha sonra İdarə Komitəsinin iclası zamanı Proqramın Ekspert qurupuna ünvanlanmış müraciətə cavab olaraq Doktor Massabo Erkən Xəbərdarlıq Sistemlərinin ümumi icmalını təqdim etdi.

İştirakçılar Erkən Xəbərdarlıq Sisteminin inkişaf etdirilməsinə böyük marağın olduğunu bildirdilər. Cənab Hüseynov iştirakçılara məlumat verdi ki, Azərbaycanda təbii təhdidlərin doğurduğu fəlakətlərlə yanaşı, həm də boru kəmərləri, dəmiryol və avtomobil qəzaları kimi digər fəlakətlərə də hazır olmaq lazımdır. Bu mühüm infrastruktur obyektlərinin mühafizəsi onların yaxınlığında yerləşən yaşayış sahələri, su anbarları və digər obyektlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə yaxşı təşkil olunmalıdır.

Cənab Səmədov yekun çıxışında Proqram komandasına Proqramın hazırkı mərhələsində yerinə yetirilmiş işlərə görə təşəkkür etdi.

**Əlavə 1: İclasın gündəliyi**

## PPRD East 2 Proqramının Milli Məsləhət Qrupunun 1-ci İclası

## 2 iyun 2015-ci il

Caspian Plaza, Cəfər Cabbarlı küç. 44, Bakı şəhəri, Azərbaycan

| | | |
|---|---|---|
| 10:00-10:30 | Qeydiyyat | |
| 10:30-10:45 | Rəsmi Açılış | Fövqəladə Hallar Nazirliyi<br>Aİ Nümayəndəliyi |
| 10:45-11:00 | İştirakçıların Təqdimatı | PPRD East 2 şərq proqramının Qrup Rəhbəri<br><br>Plenar |
| 11:00-11:15 | PPRD East 2 Şərq Proqramının Qısa İcmalı | Qrup Rəhbəri |
| 11:15-11:45 | "A" Fəaliyyət Sahəsinin Təqdimatı | Fəlakət İtkisi ilə bağlı Məlumat Bazası üzrə Mütəxəssis |
| 11:45-12:15 | Müzakirələr | Plenar |
| 12:15-12:30 | Kofe fasiləsi | |
| 12:30-13:00 | "B" Fəaliyyət Sahəsinin Təqdimatı | Mülki Müdafiə üzrə Aparıcı Mütəxəssis |
| 13:00-13:30 | Müzakirələr | Plenar |
| 13:30-14:00 | "C" Fəaliyyət Sahəsinin Təqdimatı | Fəlakət İtkisi ilə bağlı Məlumat Bazası üzrə Mütəxəssis |
| 14:00-15:00 | Nahar Fasiləsi | |
| 15:00-15:30 | Müzakirələr | Plenar |
| 15:30-16:00 | "D" Fəaliyyət Sahəsinin Təqdimatı | Əhalinin Məlumatlandırılması və Media üzrə Mütəxəssis |
| 16:00-16:30 | Müzakirələr | Plenar |
| 16:30-16:45 | Kofe fasiləsi | |
| 16:45-17:15 | "E" Fəaliyyət Sahəsinin Təqdimatı | Fəlakət İtkisi ilə bağlı Məlumat Bazası üzrə Mütəxəssis və Əhalinin Məlumatlandırılması və Media üzrə Mütəxəssisi<br>Qrup rəhbəri |
| 17:15-17:45 | Müzakirələr | Plenar |
| 17:45-18:15 | Erkən Xəbərdarlıq Sistemləri – Təqdimat və İcmal | Fəlakət İtkisi ilə bağlı Məlumat Bazası üzrə Mütəxəssis |
| 18:15-18:45 | Gələcək addımlar, Bağlanış, qrup şəkli | PPRD East 2 Şərq Proqramının Mütəxəssislər Qrupu<br>Fövqəladə Hallar Nazirliyi<br>Aİ Nümayəndəliyi |

# PPRD- East 2 Proqramının Ölkə üzrə Məsləhət Qrupunun 1-ci İclası

## 2 iyun 2015-ci il

Bakı şəhəri, Azərbaycan

İştirakçı siyahısı

| No. | Adı | İş yeri, vəzifəsi | Əlaqə vasitələri |
|---|---|---|---|
| Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | | | |
| 1. | Səmədağa Səmədov | Fövqəladə Hallar Nazirliyi | Tel.: +994 12 512 00 13<br>info@fhn.gov.az |
| 2. | Ceyhun İsgəndərli | Fövqəladə Hallar Nazirliyi | Tel.: +994 55 64 64 748<br>Jeyhun.Isgandarli@fhn.gov.az |
| 3. | Elçin Həsənov | AR FHN SİTG və DMDA baş məsləhətçi | Elchin_hasanpv@mail.ru |
| 4. | Şahzadə Hacıyeva | FHN XRXX | +994 55 224 09 74 |
| 5. | Tahir Paşayev | FHN XRXX şöbə rəisinin köməkçisi | +994 55 613 16 83 |
| 6. | Sahib Həsənzadə | FHN, SEDA, sector müdiri | Sahib540@mail.ru<br>+994 50 313 46 66 |
| 7. | Mirzəyev Əli | FHN, BVİM, CİS şöbəsi, baş zabit | Alimirza1987@gmail.ru<br>+994 50 670 20 97 |
| 8. | Rzayev Ülfat | FHN, BVİM, İKT idarəsinin rəis müavini | ulfatr@gmail.ru<br>+994 70 280 08 22 |
| 9. | İlqar Dadaşov | FHN-in Akademiyası, kafedra rəisi | ilgardadashov@mail.ru +994 50 516 76 95 |
| 10. | Xəyal Tağıyev | FHNAQİTBİ baş zabit | khayaltagiyev@mail.ru +994 55 299 11 94 |
| 11. | Yusif Soltanov | FHN FHXEBİ, baş zabit | Yusif.soltanov@gmail.com +994 55 705 99 77 |
| 12. | Fizuli Əhmədov | FHN FHXEBİ, Sektor müdiri | Akhmf1@mail.ru +994 55 512 02 63 |
| 13. | Vüsalə Zahirova | FHN, İctimaiyyətlə Əlaqə İdarəsi | Vusala.zahirova@fhn.gov.az +994 50 381 37 58 |
| 14. | İlgar Həsənov | FHN, RMİTLİTMBİ | Gasanov.i@gmail.com +994 50 644 71 74 |
| 15. | Seymur Əfəndiyev | FHN, SRM, MMİT şöbəsinin rəisi | +994 51 719 28 78 |
| 16. | Aysel Həsənova | FHN, NRFTDA, baş məsləhətçi | Hasanova.aysel@gmail.com +994 12 512 46 27 |
| 17. | İlqar İsmayılov | FHN Baş əməliyyat idarəsi | Ragli009@mail.ru |
| 18. | İsmayil Ömərov | FHN DYMX XT | +994 55 945 19 05 |

| | | | |
|---|---|---|---|
| 19 | Kamil Quliyev | FHN Hüquq idarəsinin sektor müdiri | +994 51 511 11 14 |
| 23. | Rauf Məmmədov | Bakı Regional Mərkəz. Baş zabit | Tahirmamedov2007@mail.ru +994 50 729 44 29 |
| Azərbaycan Respublikasının digər nazirlikləri/agentlikləri | | | |
| 21 | Şamil Hüseynov | Milli Məclis, Sektor müdiri | Shh_azinas@yahoo.com +994 50 374 21 42 |
| 22 | Gülnarə Abdullayeva | ETSİN Milli Monitorinq Departamenti | Gulnara.a-va@mail.ru |
| | | | |
| 24. | Telman Cəfərov | AMEA Resp. Seysmologiya Xidməti | science@azeurotel.com +994 50 577 20 06 |
| 25. | Vasif Qurbanov | DKK, Böyük inspektor | 050-717-87-97 |
| 26. | Nəriman Məmmədov | AR DİN Şöbə rəisinin müavini | +994 50 313 88 55 |
| 27. | Mehman Məmmədov | ETSİN Milli Hidrometeorologiya Dep. | +994 55 404 04 60 |
| 28. | Ələkbər Həsənəliyev | BDU dossent | Phone.+99450362 69 32 hidroloji@mail.ru |
| 29. | C. Şıxlinski | Səhiyyə Nazirliyi, məsləhətçi | +994 50 316 21 20 +994 12 565 12 74 |
| PPRD East 2 Proqramının komandası | | | |
| 30. | Serqey Anoqnosti | Qrup rəhbəri | Tel.:+380 95 242 1640 sergej.anagnosti@pprdeast2.eu |
| 31. | Michael Elmquist | Əsas Ekspert 2- Mülki müdafiə | Tel.: +380 95 242 16 35 michael.elmquist@pprdeast2.eu |
| **No.** | **Adı** | **İş yeri, vəzifəsi** | **Əlaqə vasitələri** |
| 32. | Antonin Petr | Əsas Expert 3- İmkanların artırılması | antonin.petr@pprdeast2.com |
| 33. | Marco Massabo | Fəlakət zamanı olan itkilər üzrə ekspert | marco.massabo@cimafoundation.org |
| 34. | Alessandro Candeloro | İnformsiya və media üzrə Ekspert | alessandro.candeloro@tiscali.it |
| 35. | Rafig Verdiyev | Yerli əlaqələndirici | Tel.:+994 70 349 58 84 rafig2000@mail.ru |
| 36. | Galina Sidelkivska | Layihə ofisinin meneceri | Tel.: +380 50 312 03 34 galina.sidelkovska@pprdeast2.eu |
| Digər şəxslər | | | |
| 37. | Vəfadar Ismayılov | QHT ECORES | +994557335511 |

| | | | |
|---|---|---|---|
| 38. | Gülnar Əliyeva | QHT IHPO | +994503729792 |